*İnsanların yaxşı yaşaması təkcə maddi tərəflə ölçülmür. Burada, albəttə ki, məmur-vətəndaş münasibətləri xüsusi yer tutur. Mən dəfələrlə bu məsələ ilə bağlı öz fikirlərimi demişəm... Hər kəs bilsin, eşitsin və nəticə çıxarsın: məmurlar xalq üçün yaşayırlar, əksinə deyil. Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət göstərməlidir, köməklik göstərməlidir, yekəxanalıq etməməlidir, hansısa qanunsuz tələb irəli sürməməlidir, özünü təvazökar aparmalıdır.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Vətəndaş müraciətlərinə daha operativ və dəqiq cavab verəcək mərkəz yaradıldı



***Əsas Qanunumuzun 57-ci maddəsinin birinci bəndi belədir: "Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır... Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir".***

Bu, Konstitusiyamızın tələbidir. Yəni hüquqi dövlət quruculuğu yolu tutduğumuza görə qanunun tələblərinə əməl edilməlidir və edilir. Ancaq biz təkcə hüquqi deyil, eləcə də, hüquqi-demokratik dövlət quruculuğu yolu tutmuşuq. Ölkə həyatının bütün sahələrində aparılan köklü islahatlar da məhz cəmiyyətin daha da demokratikləşdirilməsinə xidmət edir. Prezident İlham Əliyevin bu istiqamətdə atdığı addımlar bütün beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir və təqdir olunur.

Ekspertlər yazırlar ki, hüquqi dövlətin ən mühüm xüsusiyyətlərindən biri vətəndaşa münasibətin təkmilləşdirilməsidir. Qətiyyətlə deyə bilərik ki, Prezident İlham Əliyevin bu istiqamətdə atdığı addımlar bizimlə eyni vaxtda müstəqillik əldə etmiş ölkələrin heç birində qeydə alınmamışdır. Mən "ASAN xidmət"i, DOST təşkilatını və ölkəmizdə keçirilmiş bütün beynəlxalq tədbilərin iştirakçıları tərəfindən heyranlıqla qarşılanan "Könüllülər ordumuzu" nəzərdə tuturam.

**(ardı 2-ci səhifədə)**

# Vətəndaş müraciətlərinə daha operativ və dəqiq cavab verəcək mərkəz yaradıldı




(əvvəli 1-ci səhifədə)

Dövlət başçımızın təşəbbüsü və rəhbərliyi ilə yaradılmış "ASAN xidmət" bu gün nəinki ölkəmizdə, hətta xarici ölkələrdə də böyük rəğbətlə qarşılanır. Məlum olduğu kimi, "ASAN xidmət"in vətəndaşlar tərəfindən bəyənilmə əmsalı 99,4 faizdir. Yəni, bu, onu göstərir ki, xidmət, doğrudan da, böyük nailiyyətdir, böyük dəyişikliklərə gətirib çıxarıb. Eyni zamanda, "ASAN xidmət" cəmiyyətimizin ictimai şüurunda da inqilabi dəyişikliklərə səbəb olub. Dövlət başçımızın dediyi kimi, ictimai xidmətlər sektoru həmişə çox problemli olub və buna göeə vətəndaşlar çox əziyyət çəkirdilər. Bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq xidmət sektorunun əsas problemləri idi. "ASAN xidmət"in fəaliyyətə başlamasından sonra artıq bu sahədə tam şəffaflıq təmin edilibdir.

Fəaliyyətində sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin qorunmasını rəhbər tutan DOST mərkəzləri də qısa zamanda vətəndaşlarımızın etibarını qazanıb. Sosial xidmətlərin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması Azərbaycanın yeni brendinin spesifik cəhətləri sırasındadır.

Bu günlərdə isə dövlət başçımız Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib. Bu mərkəzin yaradılmasında da əsas məqsəd vətəndaşların dövlət başçımıza və Prezident Administrasiyasına sərbəst, maneəsiz müraciət etmələri üçün şərat yaradılması, eləcə də müraciətlərə baxılması üçün zəruri şəraitin təmin edilməsidir. "ASAN xidmət" və "DOST"dakı kimi, burada da indiyədək mövcud olmayan yeniliklərə imza atılmışdır. Belə ki, burada Çağrı Mərkəzi istifadəyə verilmişdir. Yəni vətəndaşlar 1111 nömrəsinə zəng vuraraq onları narahat edən məsələlər barədə məlumat verə biləcəklər. Bu müraciətlər operatorlar tərəfindən dərhal qəbul olunaraq vətəndaşlara müvafiq izahat veriləcəkdir. Daha bir yenilik isə ölkənin müxtəlif bölgələri ilə birbaşa videokonfranslar keçirilməsi imkanının yaradılmasıdır.

Xatırladaq ki, dövlət başçımız öz çıxışlarında dəfələrlə xatırlatmışdır ki, bütün qurumların fəaliyyətinə ictimai nəzarət edilməlidir. Elə bu mərkəzin istifadəyə verilməsi də ictimai nəzarətin mühüm mexanizmlərindən biri olan vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradacaq. Yəni vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, vətəndaşların qəbulunda şəffaflığın artırılması məqsədilə yaradılan mərkəzdə bu işin təşkili üçün hər cür şərait vardır.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda demokratikləşmə və modernləşmə sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş 2018-ci ilin 11 aprel seçkiləri ölkəmizin innovativ əsasda inkişafına ciddi zəmin hazırlamış, islahatların elmi əsaslarla aparılacağı qənaətini daha da gücləndirmişdir. Həmin seçkilərdən dərhal sonra dövlət başçısının siyasi iradəsi ilə hökumətin tərkibinin əsaslı şəkildə yenilənməsi, çevikliyi, müasirliyi, novatorluğu ilə fərqlənən, müasir innovasiyaları mənimsəyən gənclərin dövlət idarəetməsində irəli çəkilməsi islahatların səmərəliliyini, şəffaflığı təmin etmək məqsədindən irəli gəlir.

Sonda xatırladaq ki, hələ 2003-cü ildə, prezidentliyə namizəd olarkən "Mən hər bir azərbaycanlının prezidenti olacağam," – deyən İlham Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə həyata keçirdiyi nəhəng işlərlə bir daha sübut etdi ki, birmənalı olaraq hər bir azərbaycanlının prezidentidir. Məhz onun rəhbərliyi ilə görülən işlər ölkəmizin gələcəyinin daha parlaq olacağını tam əminliklə deməyə əsas verir. Dövlət başçımız sübut etdi ki, insan, vətəndaş, seçici amili onun üçün bütün məsələlərdən öndədir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2022.- 30 mart.- S.1;2.